# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 148** **Bakı şəhəri, 24 may 2021-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Su obyektlərinin istifadəsi və mühafizəsi üzərində dövlət nəzarətinin həyata keçirilməsi Qaydalarının təsdiq edilməsi haqqında" 1998-ci il 25 sentyabr tarixli 195 nömrəli, "Azərbaycan Respublikasının su qanunvericiliyi ilə bağlı bəzi qaydaların təsdiq edilməsi haqqında" 1998-ci il 15 oktyabr tarixli 206 nömrəli, "Suların dövlət uçotu Qaydasının təsdiq edilməsi haqqında" 2000-ci il 17 yanvar tarixli 7 nömrəli, "Su mühafizə zonalarının, onların sahil mühafizə zolaqlarının ölçülərinin, sərhədlərinin və istifadəsinin müəyyən edilməsi Qaydalarının təsdiq edilməsi haqqında" 2000-ci il 24 mart tarixli 56 nömrəli və "Su obyektlərindən hidroenergetika ehtiyacları üçün istifadə Qaydalarının təsdiq edilməsi haqqında" 2000-ci il 6 dekabr tarixli 216 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

"Elektron su təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 fevral tarixli 1289 nömrəli Fərmanının 5.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 25 sentyabr tarixli 195 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 602; 2005, № 1, maddə 49, № 6, maddə 558; 2006, № 4, maddə 370; 2007, № 4, maddə 390; 2012, № 5, maddə 477; 2014, № 7, maddə 923) ilə təsdiq edilmiş "Su obyektlərinin istifadəsi və mühafizəsi üzərində dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"na aşağıdakı məzmunda 7-ci hissə əlavə edilsin:

"7. Azərbaycan Respublikasının illik su təsərrüfatı balansına dair, ölkənin əsas su və su təsərrüfatı obyektlərində su ehtiyatları barədə gündəlik məlumatlar, o cümlədən su anbarlarının səviyyəsi, həcmi, su anbarına daxil olan və çıxan su həcmləri (strukturu göstərilməklə), hidroqovşaqların qəbul etdiyi və ötürdüyü su həcmləri (strukturu göstərilməklə), çaylar üzrə, məntəqələr və yerləşdiyi ərazilər göstərilməklə, su sərfi, subartezian və artezian quyularının istismarı barədə, su ehtiyatlarının qiymətləndirilməsi, inventarlaş-dırılması və modelləşdirilməsi ilə bağlı digər məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 fevral tarixli 1289 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron su təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "Elektron su təsərrüfatı" informasiya sisteminə daxil edilir.".

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 oktyabr tarixli 206 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 627; 2005, № 1, maddə 49, № 6, maddə 558; 2006, № 4, maddə 370; 2012, № 5, maddə 483; 2015, № 2, maddə 227; 2018, № 12 (II kitab), maddə 2721) ilə təsdiq edilmiş "Su ehtiyatlarının kompleks istifadəsi və mühafizəsi sxemlərinin işlənib hazırlanması, razılaşdırılması, dövlət eksperti-zası, təsdiqi və həyata keçirilməsi Qaydaları"na aşağıdakı məzmunda 15-ci hissə əlavə edilsin:

"15. Azərbaycan Respublikasının illik su təsərrüfatı balansına dair, ölkənin əsas su və su təsərrüfatı obyektlərində su ehtiyatları barədə gündəlik məlumatlar, o cümlədən su anbarlarının səviyyəsi, həcmi, su anbarına daxil olan və çıxan su həcmləri (strukturu göstərilməklə), hidroqovşaqların qəbul etdiyi və ötürdüyü su həcmləri (strukturu göstərilməklə), çaylar üzrə, məntəqələr və yerləşdiyi ərazilər göstərilməklə, su sərfi, subartezian və artezian quyularının istismarı barədə, su ehtiyatlarının qiymətləndirilməsi, inventarlaş-dırılması və modelləşdirilməsi ilə bağlı digər məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 fevral tarixli 1289 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron su təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "Elektron su təsərrüfatı" informasiya sisteminə daxil edilir.".

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 17 yanvar tarixli 7 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 77; 2002, № 2, maddə 101; 2005, № 6, maddə 558; 2006, № 4, maddə 370, 2012, № 5, maddə 473) ilə təsdiq edilmiş "Suların dövlət uçotunun Qaydası"na aşağıdakı məzmunda 13-cü hissə əlavə edilsin:

"13. Azərbaycan Respublikasının illik su təsərrüfatı balansına dair, ölkənin əsas su və su təsərrüfatı obyektlərində su ehtiyatları barədə gündəlik məlumatlar, o cümlədən su anbarlarının səviyyəsi, həcmi, su anbarına daxil olan və çıxan su həcmləri (strukturu göstərilməklə), hidroqovşaqların qəbul etdiyi və ötürdüyü su həcmləri (strukturu göstərilməklə), çaylar üzrə, məntəqələr və yerləşdiyi ərazilər göstərilməklə, su sərfi, subartezian və artezian quyularının istismarı barədə, su ehtiyatlarının qiymətləndirilməsi, inventarlaşdı-rılması və modelləşdirilməsi ilə bağlı digər məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 fevral tarixli 1289 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron su təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "Elektron su təsərrüfatı" informasiya sisteminə daxil edilir.".

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 mart tarixli 56 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3, maddə 244; 2004, № 12, maddə 1077; 2005, № 1, maddə 49, № 6, maddə 558; 2006, № 4, maddə 370; 2012, № 5, maddə 472; 2013, № 6, maddə 732) ilə təsdiq edilmiş "Su mühafizə zonalarının, onların sahil mühafizə zolaqlarının ölçülərinin, sərhədlərinin və istifadəsinin müəyyən edilməsi Qaydaları"na aşağıdakı məzmunda 30-cu hissə əlavə edilsin:

"30. Azərbaycan Respublikasının illik su təsərrüfatı balansına dair, ölkənin əsas su və su təsərrüfatı obyektlərində su ehtiyatları barədə gündəlik məlumatlar, o cümlədən su anbarlarının səviyyəsi, həcmi, su anbarına daxil olan və çıxan su həcmləri (strukturu göstərilməklə), hidroqovşaqların qəbul etdiyi və ötürdüyü su həcmləri (strukturu göstərilməklə), çaylar üzrə, məntəqələr və yerləşdiyi ərazilər göstərilməklə, su sərfi, subartezian və artezian quyularının istismarı barədə, su ehtiyatlarının qiymətləndirilməsi, inventarlaşdı-rılması və modelləşdirilməsi ilə bağlı digər məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 fevral tarixli 1289 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron su təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "Elektron su təsərrüfatı" informasiya sisteminə daxil edilir.".

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 dekabr tarixli 216 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 12, maddə 867; 2005, № 6, maddə 558; 2006, № 4, maddə 370; 2012, № 5, maddə 481; 2013, № 8, maddə 1013; 2021, № 2, maddə 203) ilə təsdiq edilmiş "Su obyektlərindən hidroenergetika ehtiyacları üçün istifadə Qaydaları"na aşağıdakı məzmunda 16-cı hissə əlavə edilsin:

"16. Azərbaycan Respublikasının su təsərrüfatı balansına dair, ölkənin əsas su və su təsərrüfatı obyektlərində su ehtiyatları barədə gündəlik məlumatlar, o cümlədən su anbarlarının səviyyəsi, həcmi, su anbarına daxil olan və çıxan su həcmləri (strukturu göstərilməklə), hidroqovşaqların qəbul etdiyi və ötürdüyü su həcmləri (strukturu göstərilməklə), çaylar üzrə, məntəqələr və yerləşdiyi ərazilər göstərilməklə, su sərfi, subartezian və artezian quyularının istismarı barədə, su ehtiyatlarının qiymətləndirilməsi, inventarlaşdırılması və modelləşdirilməsi ilə bağlı digər məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 fevral tarixli 1289 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron su təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "Elektron su təsərrüfatı" informasiya sisteminə daxil edilir.".

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti 2021.- 26 may.- S.6.